UOT 94(479.24); UOT 94

**ZÜLEYXA MURADOVA**
*Bakı Dövlət Universitetinin*
*Qədim dünya və orta əsrlər tarixi kafedrası*
**zuleyxamuradova@bsu.edu.az**

# AĞQOYUNLU HÖKMDARI UZUN HƏSƏN SARAYI İLƏ VENESİYA DOJU ARASINDA DİPLOMATİK YAZIŞMALAR TARİXİNDƏN (1460-1473)

DOI: https://doi.org/10.36719/2708-065X/106/127-130

*Azərbaycan hökmdarı Uzun Həsənin hakimiyyəti illərində dövlətçilik tariximizdə ilk dəfə olaraq qərb ölkələri ilə qarşılıqlı diplomatik və beynəlxalq ticarət əlaqələri qurulmuşdur. Həmin qarşılıqlı əlaqələr tarixi ənənəyə çevrilərək digər Azərbaycan dövlətləri tərəfindən daha da inkişaf etdirilmişdir. Məqalədə Uzun Həsənin yaranmış siyasi vəziyyətdən yararlanaraq Ağqoyunlu dövlətinin maraqlarını qorumasından, Venesiya Senatı ilə apardığı diplomatik yazışmaların məzmunundan, səfir və elçilərin Venesiya Senatında və Ağqoyunlu sarayında qəbulundan bəhs edilir.*

*Açar sözlər:* dövlətçilik tarixi, Uzun Həsən, diplomatiya tarixi, xarici siyasət tarixi, Osmanlı imperiyası, Venesiya Respublikası, səfirlər, hərb siyasəti tarixi, Qərb ölkələri.

***Giriş.*** Müasir dövrdə Azərbaycan və İtaliya arasında mövcud ikitərəfli çoxşaxəli strateji əməkdaşlığı yaradan təməl amillər XV əsrin ortalarından etibarən bu iki ölkə arasında ümumi məqsədlər üçün qurulmuş diplomatik münasibətlərə və tarixi daha qədim olan ticarət əlaqələrinə əsaslanır. Azərbaycanın qədim dövlətçilik ənənələrini qoruyub saxlamağa çalışan Azərbaycan Ağqoyunlu imperiyasının hökmdarı Uzun Həsən istər hərb sənətində, istərsə də diplomatiya sahəsində göstərdiyi bacarığı sayəsində Qərb dövlətləri ilə qarşılıqlı əlaqələr yaratmağa nail ola bilmiş, dövrün ən qabaqcıl hərbi texnikasına malik Osmanlı imperiyasına qarşı duruş gətirə bilmişdir.

XV əsrdə Ağqoyunlu dövləti yaranarkən Osmanlı ilə çoxəsrlik mübarizə aparmış Venesiya hökümətinin əlinə yeni fürsət düşür. Nəhayət ki, senatın çoxdan planladığı Osmanlı imperiyasının hərbi qüvvələrini iki cəbhəyə bölüb məğlub etmək siyasəti reallaşmağa çox yaxınlaşır (1.2, s.viii). Öncə Qaraman bəyləri vasitəsilə Uzun Həsən dövləti ilə əlaqə quran Venesiya Ağqoyunlu dövlətinin bölgədəki həm siyasi mövqeyini, həm hərbi qüdrətini gücləndirməkdə maraqlı idi. Belə ki, coğrafi olaraq həm Osmanlı dövlətinin qonşuluğunda yerləşən və beləcə, hərbi əməliyyatların keçirilməsini asanlaşdıran, həm də Venesiyanın üstünlük qazanmaq istədiyi qədim ticarət yollarına sahib dövlətlə müttəfiq olmaq bölgədə nəinki siyasi, eləcə də iqtisadi gücə malik olmaq demək idi.

Osmanlı imperiyasına qarşı Uzun Həsənə arxalanan digər qüvvə Kiçik Asiyadakı Trabzon imperatorluğu idi. Trabzon imperatoru Osmanlı imperatorluğuna qarşı öz müstəqilliyini qoruyub saxlamaq üçün nikah diplomatiyasından istifadə edirdi. O, bu məqsədlə öz qızı Teodoranı[1] Uzun Həsənə, digər qızını isə Arxipelaq doju Nikkolo Krespoya ərə verir. (1, s.2-3) Trabzon dövləti Osmanlı təhlükəsini dəf edə bilməyərək süqut etsə də, Teodoranın bacısı qızlarının Venesiya əsilzadələri ilə evliliyi Ağqoyunlu-Venesiya münasibətlərini ailə bağlılığı ilə daha da möhkəmləndirir. Belə ki, Teodoranın bacısının sonuncu-dördüncü qızı Violantenin[2] əri Katerino Zeno XV əsrin 70-ci illərindən etibarən Venesiya dojunun səfiri qismində Ağqoyunlu sarayına göndərilmiş ən səriştəli səfirlərdən biri kimi tarixdə tanınır (3, s.312).

Venesiya-Qaraman-Ağqoyunlu koalisiyası Osmanlı imperatorluğuna qarşı ilk xristian-oğuz ittifaqı olmuşdur. Bu siyasi birlikdə Venesiyanı özünə daha böyük təhlükə görən Osmanlı dövləti ilk olaraq Venesiya Respublikasına qarşı müharibəyə başlayır və beləliklə, Uzun Həsənin sarayı ilə Venesiyanın Azərbaycan-İtaliya tarixində mühüm rola malik olan diplomatik yazışmalar dövrü başlayır. Vene-

[1] *Bəzi mənbələrdə* ***Feodora*** *kimi tanınır.*
[2] *Bəzi mənbəlrədə Violanta kimi tanınır.*

siya senatının 1463-cü il 2 dekabr tarixli qərarı (lehinə-110, əleyhinə-16 və bitərəf-3) ilə Qaraman bəyi Pir Əhməd və onun vasitəçiliyi ilə Uzun Həsənə Senatın müttəfiqlik təklifini bildirməsi üçün hökumətin ilk nümayəndəsi Andrea Kornaro seçilir. Həmin qərarın məzmunu Kornaroya ünvanlanan məktubdan ibarətdir. Məktubda deyilir: "... ən qısa zaman ərzində şəxsən böyük Qaraman bəyinin yanına get və ona bizim sənə bu məktubla göndərdiyimiz etimadnaməni təqdim et. Eyni zamanda, onun və bizim ortaq düşmənimiz olan *Türkün* (II Mehmet – müəllif) "həyasızlığı" və çox böyük hökmranlıq həvəsini, nə qədər ərazi işğal edərək viran qoyduğunu və həmin dövlətlərin hökmdar və şahzadələrini öldürdüyünü də xatırlat. Gördüyün kimi, o, bütün dünyaya qalib gəlmək istəyir və buna görə sən əlindən gələni ən faydalı və ən yaxşı şəkildə etməlisən. Sən onu (Qaraman bəyini – müəllif) düşmənə qarşı o tərəflərdə müharibəyə başlamağa necə sövq etmək lazım olduğunu bilirsən. Həmin düşmənin qürurunu sındırmaq üçün ona qarşı Yunanıstanın və Avropanın bəzi hissələri, eləcə də biz və digər zadəgan və hökmdarlar əlimizdən gələni edirik və etmək fikrindəyik" (1.1, s.103) *(latın dilindən tərcümə müəllifə məxsusdur)*.

Senatın sözügedən qərarında eləcə də, Venesiya səfiri Ladzaro Kuirinini elçi qismində Qaraman və Ağqoyunlu dövlətlərinə göndərilməsi öz təsdiqini tapır. Senatın həmin yığıncağında *Türkə* (II Mehmet – müəllif) qarşı Avropa koalisiyasının yaradılması məqsədilə səsçoxluğu ilə Andrea Kornaroya ünvanlanmış məktubda qeyd edildiyi kimi Fransa sarayına səfir Nikolo Kanal, Burqundiya kralının yanına elçi Marko Dona və digər elçiləri Siciliya və Portuqaliya krallıqlarına göndərilməsi qərara alınır. Eyni qərarla Osmanlıya qarşı yaradılmış koalisiyaya qoşulması üçün Macarıstan və Bohemiya krallarına məktub göndərilməsinə qərar verilir (5, s.552).

1464-cü ildə Andrea Kornaronun gətirdiyi məktuba münasibət bildirmək və öz qərarları barədə Venesiya dojunu məlumatlandırmaq üçün Uzun Həsən *Mamenatazab(?)* adlı ilk elçisini Venesiya senatına göndərir. Ağqoyunlu elçisi sonralar Osmanlı tərəfindən işğal olunan Hələb şəhəri və Malta ordeni idarəçiliyində olan Rodos adası yolu ilə Venesiyaya 13 mart tarixində çatır. Uzun Həsənin məktubunda dövlətin siyasi və iqtisadi qüdrətinə qarşı yaranmış təhlükə qarşısında Osmanlıya qarşı hərbi hazırlıq əhval ruhiyyəsi diqqətdən yayınmır. Belə ki, istər dojun məktubuna cavab verilmə müddəti, istərsə də məzmunu bu fikri əsaslandırmağa əsas verir. 1465-ci ilin yazına qədər **60 min** nəfərlik ordu ilə öz dövlətinin maraqlarını qoruyacağından bəhs edən Uzun Həsən bu məktubda həm də təmkinlə siyasət yeritməyin tərəfdarı olduğunu göstərir. Məktubdakı "iri ağac küləyə tab gətirsə də, kiçik qurd onu ən zəif küləyin qarşısında aciz qoya bilər" zərbməsəli Uzun Həsənin həm də müdrik siyasətçi olduğunun göstəricisidir.

Ağqoyunlu dövləti ilə Venesiya Respublikası arasında mövcüd məlumat mübadiləsinin bir xüsusiyyəti də ondan ibarət idi ki, bəzi qərar və məlumatlar elçiyə şifahi şəkildə çatdırılırdı. Ağqoyunlu elçisi *Mamenatazab(?)* dojun qəbulunda olarkən ona anti-Osmanlı koalisiyası çərçivəsində əldə olunmuş sahil və liman şəhərlərinin Venesiyaya aid ediləcəyi barədə razılığa gəlirlər. Halbuki, dojun Uzun Həsənə ünvanladığı məktubda bu münaqişədə əldə ediləcək quru torpaqlarının Ağqoyunlu mülkü hesab olunacağı barədə təminat yer alır. Yuxarıda qeyd edilən məsələnin isə niyə məktubun məzmununda əks olunmayaraq şifahi şəkildə razılaşdırılmasının səbəbini isə Venesiyanın Ağqoyunlu-Osmanlı münasibətlərində hərb diplomatiyası adı altında inkişaf etdirdiyi ticarət siyasətində görürük. XII əsrdə yaşamış Venesiya doju Enriko Dandolonun Venesiyanın ticarət qüdrətini artırmaq üçün müəyyən etdiyi dövlət siyasəti xəttində asılı xalq siyasətinə deyil, dost xalqa arxalanmağa, geniş torpaqlara deyil, strateji sahillərə yiyələnməyə üstünlük verilirdi.

Venesiyanın Osmanlı imperiyasına qarşı müttəfiqlik təklifi hərbi əməliyyatların iki cəbhədə aparılmasını, yəni Ağqoyunlu qüvvələrinin qurudan, xristian koalisiyası üzvlərinin isə Venesiyaya məxsus hərbi donanma ilə dənizdən eyni zamanda hücuma keçilməsini nəzərdə tuturdu. Ağqoyunlu səfiri *Mamenatazab(?)* dojun Uzun Həsənə məktubu və qiymətli hədiyyələri ilə öz ölkəsinə qayıdarkən Rodos adasında hərbi dəniz qüvvələrinin generalı Piyetro Moçeniqo ona Venesiya hərbi donanmasını nümayiş etdirir (2, s.76). Fikrimizcə, bu "əyani sübut" Ağqoyunlu dövlətinin etibarını qazanmaq və onu müharibəyə həvəsləndirmək məqsədi daşıyırdı. Bu hal strateji şəkildə mühafizə olunan donanmanın dojun əmri ilə Uzun Həsənin elçisinə göstərildiyini ehtimal etməyə əsas verir. Zənnimizcə, birinci elçinin Ağqoyunlu sarayına qayıdışından sonra növbəti il dərhal ikinci diplomatın Venesiyaya göndərilməsi bu cür strateji diplomatik gedişin nəticəsi olmuşdur. Öz məktubunda müharibəyə hazır olduğunu bildirən və Venesiya Respublikası və digər avropalı müttəfiqlərinin döyüş hazırlığı ilə maraqlanan Uzun

Həsən Senatın 27 fevral 1466-cı il tarixli məktubundan qərb qüvvələrinin koalisiyasının zəiflədiyi xəbərini alır. Osmanlının qati düşməni olan Roma papası ikinci Pio[3] vəfat etmişdir və qərb kralları Venesiya Respublikasının daha da güclənməsindən ehtiyat edərək onunla ədavət aparırmışlar (1.3, s.106).

Ümumiyyətlə, Venesiya Respublikası Uzun Həsən sarayı ilə əlaqələri daha da inkişaf etdirmək üçün Uzun Həsənin xanımı Dəspinə xatundan da istifadə edirdi. Dəspinə xatun Uzun Həsənin icazəsi ilə bacısı qızının həyat yoldaşı olan Venesiya səfiri Katerino Zenonu qəbul edir, onunla siyasi-diplomatik mövzularda fikir mübadiləsi aparır, hətta onunla eyni yemək süfrəsi arxasında əyləşirdi. XV əsr müsəlman dünyasına yad olan bu cür davranış Uzun Həsən tərəfindən dözümlə qarşılanır və hökmdar Venesiya sinyoriyasının Uzun Həsənə təsir etmək üçün Dəspinə xatunla görüşlərə əhəmiyyət verdiyini yaxşı bilirdi. Zənnimizcə, Dəspinə xatunun onları qəbul edib diskussiyalar aparmasının səbəbi yalnız qohumluq əlaqələrinə görə deyil, Azərbaycan hökmdarının apardığı müdrik diplomatik siyasətinin bir xəttidir. Bu xətt Uzun Həsənə imkan verirdi ki, qərbin əsl məqsədini aydınlaşdırsın, dəqiqləşdirsin. Uzun Həsən öz diplomatik əlaqələrindən Roma papası, Neapol krallığı və digər İtaliya dövlətləri ilə danışıqlar aparmaq üçün də istifadə edirdi. Lakin onların içərisində Venesiya Respublikası istər iqtisadi cəhətdən, istərsə də hərbi donanmaya sahib olması baxımından ən qüdrətlisi idi.

Doj Uzun Həsənin diplomatik missiya ilə Venesiyaya göndərdiyi elçilərin Venesiya gəmiləri ilə müşayiət olunması üçün Rodos adasındakı Pietro Moçeniqoya göstəriş vermiş olmalıdır ki, səfir Zeno 1472-ci ilin avqust ayında Ağqoyunlu elçisi Hacı Məhəmmədin Venesiyaya çatdırılmasında köməklik göstərməsi üçün ona məktub yazmışdır. (4, s.76) Hacı Məhəmmədin missiyası Venesiya senatından odlu silah yardımı istəməsi üçün təşkil edilmişdi. 1473-cü ilin 11 yanvarında Senat öz müttəfiqinin müraciətini yerinə yetirərək bu missiya üçün təyin etdiyi yeni səfir Cosafat[4] Barbaro ilə birlikdə silah sürsat tədarükünü və Uzun Həsənə ünvanladığı məktubunu Ağqoyunlu dövlətinə çatdırmaq üçün yola salmışdır (1.4, s.116).

Bu missiya çərçivəsində Uzun Həsənin Venesiya dojuna hədiyyə olaraq göndərdiyi çox böyük ölçülü firuzəyi rəngli yarımkürə formalı qab xüsusi olaraq diqqətə çatdırılmalıdır. Belə ki, həmin heyranedici təəssürat bağışlayan eksponat hal-hazırda Müqəddəs Mark Kafedralında, XII əsrdə yaradılmış Müqəddəs Mark Xəzinəsində saxlanılır.

***Nəticə.*** Ağqoyunlu İmperiyası Osmanlı imperatorluğuna qarşı öz siyasi varlığını və iqtisadi müstəqilliyini qorumaq üçün xristian Qərbin müttəfiqlik təklifini qəbul edir, buna baxmayaraq həlledici məqamlarda uzaqgörənlik və təmkinlilik sərgiləyərək öz dövlətinin maraqlarını qoruyur. Hücum təhlükəsi altında olan sərhəd ərazilərdə yaşayan insanların başqa yerə köçürülməsi, qarşı tərəfi əldən salmaq məqsədilə torpaqların yandırılaraq su quyularının basdırılması, az insan tələfatı vermək üçün ordunun ölkənin içərilərinə doğru çəkilməsi, ağacların kəsilərək səngər şəklində istifadə edilməsi kimi dövrün mühüm hərbi strateji addımları əsrlər boyu zülmə və istilalara məruz qalmış xalqın yetişdirdiyi Uzun Həsən kimi görkəmli sərkərdələrlə, imperatorlara məxsusdur. Nikah diplomatiyası hesabına Qərbin etimadını qazanan Uzun Həsən bu əlaqələrdən öz dövlətinin xeyrinə istifadə edə bilmişdir. Bu Azərbaycan hökmdarının müdrik diplomatiyası ondan ibarətdir ki, o, vahid siyasi hakimiyyət quraraq Avropa dövlətlərinin diqqətini özünə cəlb etmiş, onlarla geniş əlaqələr yaratmış və bununla Ağqoyunlu imperiyasına həm hərbi, həm də siyasi tərəfdaşlar qazanmaq siyasəti yeritmişdir.

ƏDƏBİYYAT

1. Berchet G., La Repubblica di Venezia e la Persia, İtalia, 1865, 294 p.
1.1. Sənəd 2. Venesiya Senatının 2 dekabr 1463-cü il tarixli qərarı, s.102-104.
1.2. G.Berşenin Neqri Kristoforoya məktubu, s.vii-xi.
1.3. Sənəd 5. Venesiya dojunun Uzun Həsənə məktubu, s.106-108.
1.4. Sənəd 9. Senatın Cosafat Barbaroya verdiyi göstərişlər, s.116-125.
2. Mahmudov Y.M., Azerbaigian e Europa, le relazioni diplomatiche tra XV e XVII secolo, EurasianBooks, 2015, 272 p.
3. Mahmudov Y.M., Zeno Katerino. Azərbaycan Sovet Ensiklopediyası, IV cild, Bakı, 1980, s.312.

[3] *Bəzi mənbələrdə Piy kimi tanınır.*
[4] *Bəzi mənbələrdə İosafat Barbaro kimi tanınır.*

4. Domenico Malipiero, Annali veneti, Archivio storico italiano, Firenze, 1843 vol. VII e VIII, 570 p.
5. Paolo Morosini, Historia della città e della Repubblica di Venetia, XXIV cild, 632 p.

**ЗУЛЕЙХА МУРАДОВА**
*Кафедра истории древнего мира и средних веков*
*Бакинского Государственного Университета*

## ИЗ ИСТОРИИ ДИПЛОМАТИЧЕСКОЙ ПЕРЕПИСКИ МЕЖДУ ПРАВИТЕЛЕМ АККОЮНЛУ УЗУН ГАСАНОМ И ВЕНЕЦИАНСКИМ ДОЖЕМ (1460-1473)

История дипломатических отношений между Азербайджаном и Италией восходит к средневековью, когда они были установлены с тогдашними Азербайджанским государством Аккоюнлу и Венецианской Республикой. После завоевания Константинополя султан Мехметом Фатихом могущественная Османская империя для европейских стран стала более серьёзной угрозой. В результате этого геополитического изменения государство Аккоюнлу и Венецианская Республика заключили союз, который привёл к установлению дипломатических отношений и их очень быстрому расширению на другие итальянские и западные правительства.

Когда первый венецианский представитель, назначенный Сенатом, появился во дворце Узун Гасана, ему было дано чёткое указание: представить коалиционный план и убедить Караманский эмират и государство Аккоюнлу бороться против «общей угрозы». Будучи дальновидным политиком, Узун Гасан установил взаимоотношения с Венецианской Республикой и другими западными странами, чтобы укрепить экономику страны за счёт расширения торговых отношений с европейскими странами.

*Ключевые слова:* история государственности, Узун Гасан, история дипломатии, история внешней политики, Османская империя, Венецианская Республика, послы, военная политика, страны Запада.

**ZULEYKHA MURADOVA**
*Department of the Ancient and Medieval History*
*Baku State University*

## FROM THE HISTORY OF DIPLOMATIC CORRESPONDENCE BETWEEN THE RULER OF THE AKKOYUNLU STATE UZUN HASAN AND THE DOGE OF VENICE (1460-1473)

The history of the diplomatic relations between Azerbaijan and Italy dates back to the Middle Ages, established with the then Azerbaijan Akkoyunlu State and the Republic of Venice. After the conquest of Constantinople by Mehmet the Conqueror the great Ottoman Empire became a severe threat for European countries. As a result of this geopolitical change the Akkoyunlu State and the Republic of Venice made an alliance which brought to the establishment of the diplomatic relations and to its very rapid expansion to other Italian and Western governments.

When the first Venetian representative appointed by the Senate showed up at the premises of Uzun Hasan's palace, he was given a clear instruction: to introduce the coalition plan and to persuade the Emirate of Karaman and the State of Akkoyunlu to fight against the *"common threat"*. Being a long-term thinker, Uzun Hasan established mutual relations with the Republic of Venice and other Western countries to strengthen country's economy by increasing commercial relations with European countries.

*Keywords:* history of statehood, Uzun Hasan, history of diplomacy, history of foreign policy, Ottoman Empire, Republic of Venice, ambassadors, military policy, Western countries.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 10 oktyabr 2024-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 15 oktyabr 2024-cü il.*
*Rəyçilər: t.ü.f.d. Rəna Şahbazova, t.e.d. Qabil Əliyev.*